# Ağca



Dostların əhəmiyyəti

Qarşılıqlı yardım

Məktəbə uyğunlaşma

Bilirsinizmi, neçə dostunuz ola bilər? Bu hiyləli bir tapmacadır – əslində dostlar istənilən qədər ola bilər. Hamımız fərqliyik: kimsə asanlıqla dostlar qazanır, kimdəsə bu cür alınmır. Kimsə ümumiyyətlə elə hesab edir ki, ona dostlar lazım deyil! Gəlin, sizə dəvə balası Ağcanın başına gələn əhvalatı danışım...

Bu gün vacib gün idi – dəvə balası Ağca otlaqdakı uşaq bağçasının hazırlıq sinfinə gedirdi, çünki payızda Ağca məktəbə getməli idi.

Ağca səhər tezdən oyandı, valideynləri ilə birlikdə səhər yeməyini yedi, daha sonra anası sevgi ilə onun gözəl, ağ rəngli yununu daradı və Ağcanın boğazından yeni zınqırov asdı.

- Uğurlar sənə, əziz balam, - anası dedi, – ehtiyatlı ol. Bir də ki, – başqa uşaqlarla dostluq etməyə çalış.

- Nə üçün? – deyə Ağca donquldandı.

– Bəs sən dostlar qazanmaq istəmirsən? – anası təəccübləndi.

- Yox! - Ağca qürurla başını qaldırdı – zınqırov sakitcə səsləndi. – Mənə elə tək də xoşdur.

- Bəs sənə kömək lazım olsa? – anası ehtiyatla soruşdu.

- Hm... Onda səndən və ya atamdan kömək istəyərəm. Yaxşı, mən getdim!





Gözəl bir gün idi – günəş mavi səmada sevinclə parlayır, yumşaq otlar Ağcanın ayaqları altında sakitcə xışıldayır, zınqırov ahənglə səslənirdi – dəvə balasının əhvalı çox yaxşı idi. Ağca xəyal edirdi: budur o - ağappaq gözəl sinfə gəlir, müəllimin suallarına cavab verir – müəllim isə onu tərifləyir, digər şagirdlərlə qaçaraq ötüşür – və əlbəttə ki, finişə birinci çatır... dostlar nəyə lazımdır? Onların faydası nədir?

O, artıq məktəb alaçığına yaxınlaşırdı, birdən ağacın sıx yarpaqları arasından səs eşidildi.

- Burada kim var? – deyə Ağca bərkdən soruşdu.

Saksaul ağacının əyri ağ rəngli budağının altından qum-sarı rəngli tüklü bir heyvan qorxa-qorxa boylandı – onun qalın burnu və yumru qara gözləri var idi.

- Sən dovşansan? – Ağca soruşdu və özü-özünə cavab verdi: - Yox, dovşanların qulaqları uzun olur, sənin qulaqların isə yumru və balacadır...

- Mən – marmotam! – yeni tanışı incik halda söylədi. – Mənim adım Samurdur... Siz dəvələr, o qədər qürurlusunuz ki, heç zaman gözünüz ayağınızın altına baxmır. Necə oldu ki, məni tanımadın?

Ağca mızıldandı.

- Bəs sən nə üçün gizlənirsən?

- Elə belə... - Samur köks ötürdü. – Mən hazırlıq sinfinə gedirəm. Hərçənd ki, getmirəm, fikrimi dəyişdim.

- Nə üçün? – Ağca təəccübləndi.

- Əşşi, lazım deyil. Orada hamı böyük və qəzəblidir, hamının dırnaqları, caynaqları və böyük dişləri var. Mənim kimisini tapdayarlar – səsimi çıxara bilməyəcəm.

- Özündən uydurma! – Ağca güldü. – Sən elə də balaca deyilsən, siçan deyilsən ki. Onlar heç də qəzəbli deyillər. Mən ki, səni tapdalamadım. Bir də ki, – alaçıqda müəllim var, o, sənin xətrinə dəyməyə imkan verməz. Gedək, bəsdir, qorxaq olma!

Ağca məktəbə doğru yollandı – dərslər indicə başlayacaq, bircə axmaq marmotun üzündən dərsə gecikmək çatışmırdı. Yeri gəlmişkən, o, haradadır? Dəvə balası ətrafa baxdı: Samur saksaulun arxasından çıxdı, üzərindən yarpaqları və otları atdı, bir saniyə ərzində "sütun" pozasında gülməli vəziyyətdə dayandı, daha sonra isə Ağcanın arxasınca qaçmağa başladı.

Onun arxasında açıq-çəhrayı rəngli bel çantası var idi. Ağca və Samur məktəb alaçığına sonuncu çatdılar. Yalnız bir parta boş idi. Ağca, təbii ki, kətildə əyləşə bilmədi –uzun ayaqları ona mane olurdu, həm də dəvələr otura bilmirlər, partanın qarşısında döşəkcənin üzərində uzanmalı oldu. Marmot isə çevikliklə onun yanındakı kətilə əyləşdi, pəncələrini masanın üzərinə qoydu və ətrafa baxdı.

Ağcanın və Samurun sinfində kimlər yox idi! Gecə kimi qapqara dayça, qıvrım yunlu quzu, bir yerdə qərar tutmayan çəpiş, uzun kirpikli bir cüt buzov, uzun boyunlu üç qaz balası, uzun qulaqlı, ensiz sifətli tazı küçüyü, möhkəm dişli vaşaq balası və hətta, ağ şahinin bir neçə balası.






Müəllim alaçığa daxil oldu. Bu, otlaqda ən hörmətli çoban – Şahmar idi. O, şagirdlərin qarşısında dayandı, ağarmış uzun saqqalını tumarladı və dedi:

- Salam, uşaqlar!

- Salam, müəllim! – şagirdlər cavab verdilər.

- Əhsən! Əbəs yerə xalq arasında demirlər ki, "Salam - sözlərin anasıdır". Dəftərlərinizi və qələmlərinizi çıxarın, məsələnin şərtini lövhədən köçürün! – və Şahmar hiyləgərcəsinə gülümsədi.

Şagirdlər səs-küy salmağa başladılar.



- Mən necə yazacağam, axı mənim barmaqlarım yoxdur! – Ağca həyəcanla səsləndi.

- Mən sənə kömək edərəm, – marmot o dəqiqə dilləndi, öz pəncələrini irəli uzatdı və iti caynaqlı barmaqlarını tərpətdi. – Gəl, mən tapşırığı yazım, amma bir yerdə həll edək, yaxşı?

- Yaxşı... - Ağca minnətdarlıqla dedi. – Samur, çox sağ ol!

Marmot bel çantasından dəftəri və qələmi çıxardı və lövhədən tapşırığın şərtini köçürməyə başladı.

Digər şagirdlər dəvə balasına və marmota baxaraq cüt-cüt ayrıldılar ki, bir-birlərinə kömək etsinlər... Qaz balaları qələmləri uzun dimdiklərində sıxdılar, şahin balaları – pəncələrində – və hamı işə başladı!

Tənəffüsdə Ağca və Samur bir-biri ilə sözləşmədən, məktəb alaçığından birlikdə çıxdılar.

- Sən, adətən, nə etməyi daha çox sevirsən? – Samur soruşdu.

- Mən qaçmağı xoşlayıram, - Ağca utancaq şəkildə cavab verdi.

– Bəs sən? - Mən isə kompüterdə oynayıram...

"Belə sürətli barmaqlarla gəl bir oynama", - deyə Ağca düşündü.

- Mən həm də oxumağı xoşlayıram... - marmot əlavə etdi.

- Mən isə – cizgi filmlərinə baxmağı xoşlayıram... - deyə dəvə balası ah çəkdi.

"Aramızda ümumi heç bir şey yoxdur", - Ağca kədərlə düşündü.

- Bəs sən böyüyəndə kim olacaqsan? – Samur soruşdu.

- Gəmi kapitanı! – birdən Ağca etiraf etdi və utandığından qızardı, axı bu arzusu haqqında heç kimə heç nə deməmişdi.

- A-a, buna görə sizi - dəvələri səhranın gəmiləri adlandırırlar? – Samur onu ələ salmağı heç düşünmürdü. – Bu əladır! Mən isə şturman olmağı, yol göstərməyi arzu edirəm. Harada olmasının fərqi yoxdur – quruda və ya dənizdə. Nədir ki? Görmə qabiliyyətim əladır, kompüteri öyrənmişəm. Bir az balacayam...

- Sən heç də balaca deyilsən, təkrar etməkdən yoruldum! – Ağca ayağını yerə döyəclədi. – Və sən çox ağıllısan! Mən sənin kimi şturmanı öz gəmimə mütləq götürərdim. Bəs sən bilirsənmi, bir dəniz mili neçə metrdir?

Samur gülümsündü və başı ilə razılıq bildirdi...

Dəniz milinin uzunluğu barədə vacib məsələni müzakirə etdikdən sonra dostlar gülərək qaçdı-tutdu oynamağı qərara aldılar. Onların sinif yoldaşları şən qəhqəhə ilə qaçır və bir-biri ilə yarışırdılar. Və çox keçmədən Ağca hamıdan qabaqda idi. Çünki Samur, sadiq şturman kimi onun belində oturmuşdu və rəqibləri necə ötmək lazım olduğunu ona deyirdi!





Ağca hazırlıq sinfindəki ilk günü barədə evdə danışanda anası ondan soruşdu – indi başa düşürsənmi, dostlar nə üçün lazımdır? Dəvə balası başı ilə təsdiq etdi, zınqırov səsləndi: - Dostlarla hər zaman maraqlı və əyləncəlidir! Xüsusilə də qaçdı-tutdu oynamaq! Və xəyal etmək...